**Daşqın MƏHƏMMƏDLİ**
*BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı*

# AZƏRBAYCANDA DÖVLƏT ELMİ-SAHƏVİ KİTABXANA FONDLARININ FORMALAŞMASI VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

***Açar sözlər:*** *Elmi-sahəvi kitabxana, sənəd, Respublika Elmi-Pedaqoji Kitabxanası, kitab fondu, Respublika Elmi-Texniki Kitabxanası, informasiya resursları, Respublika Elmi Tibb Kitabxanası, dövri nəşrlər, Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası*

***Key words:*** *Sciential-sectoral library document, Republican Scientific-Pedagogical Library, book fund, Republican Scientific-Technical Library, information resources, Republican Scientific-Medical Library, periodical prints, Republican Scientific- Agriculture Library*

***Ключевые слова:*** *Научный-отраслевая библиотека документов, Республиканский научно-педагогическая библиотека, книжный фонд, Республиканский научно-техническая библиотека, информационные ресурсы, Республиканский научно-медицинская библиотека, периодические печатные издания, Республиканская научно-Сельское хозяйство Библиотека*

Dünya kitabxanaşünaslıq nəzəriyyəsində kitabxanaların öz məqsəd və vəzifələrinə, profil və funksiyalarına uyğun olaraq təsnifləşdirilməsi, vahid tipologiyasının formalaşdırılması həmişə mürəkkəb və çox aktual problemlərdən biri kimi qarşıda durmuşdur. Belə ki, müxtəlif ölkələrdə cəmiyyətin inkişaf səviyyəsindən, əhalinin savadlılıq dərəcəsindən, informasiya tələbatının mövcud vəziyyətindən və s. asılı olaraq kitabxanaların tipoloji təsnifatının yaradılmasına cəhd edilərək müəyyən uğurlar əldə edilsə də, bu sahədə vahid ümumbəşəri xarakter daşıyan ciddi tipoloji təsnifləşdirmənin formalaşdırılması mümkün olmamışdır. Çoxsaylı muza-



kirələr və mübahisələr doğuran bu problemin qəti şəkildə aydınlaşdırılmasına böyük ehtiyac duyulmaqdadır.

Respublikamızın müstəqillik qazanması, suveren dövlətin inkişaf qanunlarına uyğun olaraq cəmiyyətin bütün sahələrində ciddi dəyişikliklərin baş verməsi, xalqın öz milli ənənələrinə, soykökünə qayıtması, mədəniyyətin ayrı-ayrı sahələrinin həyatın tələbi ilə köklü yeniləşmələrə məruz qalması milli mədəniyyətin, milli ideologiyanın yeni əsaslar üzərində qurulmasını tələb edir.

Bu mənada müstəqillik şəraitində Azərbaycan Respublikasında kitabxanaların tipoloji təsnifatının yaradılması görkəmli kitabxanaşünas alim, Əməkdar elm xadimi, professor A.A.Xələfovun adı ilə bağlıdır. Prof. A.A.Xələfov özünün zəngin çoxillik təcrübəsinə əsaslanaraq, milli dövlətçiliyimizə və milli ideologiyamıza xidməti baxımından respublikamızın dövlət müstəqilliyi şəraitində mühüm vəzifələr yerinə yetirən kitabxanaların yeni tipoloji təsnifatını vermiş və onu mütəxəssislərin müzakirəsinə təqdim etmişdir.

Beləliklə, prof. A.A.Xələfov tərəfindən təklif edilən kitabxanaların tipoloji təsnifatı aşağıdakı kimidir:

1) Universal kitabxanalar;
2) Xüsusi kitabxanalar;
3) Təhsil müəssisələrinin kitabxanaları.

Görkəmli kitabxanaşünas alim həmin kitabxana tiplərinin növlərini də göstərmişdir. Belə ki, universal kitabxanalar iki yerə: universal elmi kitabxanalar və universal ümumi kitabxanalar növlərinə bölünür.

Universal elmi kitabxanalara bunlar daxildir:

a) Milli Kitabxana;
b) Prezident Kitabxanası;
c) Parlament Kitabxanası;
d) Muxtar Respublikanın Dövlət Kitabxanası.

Universal ümumi kitabxanalara isə bunlar aid edilmişdir:
a) Mərkəzləşdirilmiş Kitabxana Sistemləri (MKS-lər);
b) Kənd (ümumi) kitabxanaları;
c) Müstəqil gənclər kitabxanaları;
d) İctimai təşkilatların kitabxanaları.

Təsnifatda xüsusi kitabxanalar tipinin növləri belə sıralanmışdır:
a) Respublika elmi-sahəvi kitabxanaları;
b) Ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin xüsusi kitabxanaları;

Təhsil müəssisələri kitabxanaları tipinin tərkibinə daxil olan kitabxana növləri isə bunlardır:
a) Təkmilləşdirmə institutlarının kitabxanaları;
b) Respublika Milli Elmlər Akademiyasının kitabxanaları;
c) Ali məktəb kitabxanaları;
d) Orta ixtisas məktəblərinin kitabxanaları;
e) Ümumtəhsil məktəblərinin kitabxanaları. (5, s.99)

Göründüyü kimi, məqalədə haqqında bəhs edəcəyimiz respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar təsnifatda ikinci tipə, yəni xüsusi kitabxanalar tipinə daxil edilmişdir. Burada respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar öz məqsəd və vəzifələrinə, profil və funksiyalarına görə ətraflı elmi təhlil edilmiş və gəlinən nəticəyə əsasən, çox haqlı olaraq bu qrupa daxil edilmişdir. Çünki həmin kitabxanalar yuxarıda adlarını çəkdiyimiz aspektlərə əsasən, əsas etibarilə xüsusi qrup informasiya tələbatçılarına xidmət edərək, xalq təsərrüfatının ayrı-ayrı konkret sahələrinin inkişafına, elmi-informasiya təminatının həyata keçirilməsinə xidmət göstərirlər.



Kontekst ətrafında bir mühüm məsələni də qeyd etmək yerinə düşür ki, tipindən və növündən asılı olmayaraq bütün respublika kitabxanalarının, o cümlədən elmi-sahəvi kitabxanaların konkret hüquqi statusu bir çox ali dövlət sənədlərində, xüsusilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 1998-ci ilin dekabrında qəbul edilmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda öz geniş əksini tapmışdır. Ümumiyyətlə, bu qanun Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələblərini, kitabxanaların maliyyələşdirmə mənbələrini, kitabxanalardan istifadə şəraitində vətəndaşların hüquq və vəzifələrini və kitabxana işi sahəsində beynəlxalq əmkdalığın prinsiplərini müəyyən edir.

Qanunun 8-ci maddəsi "Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar" adlanır və məhz burada respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların statusu, əsas vəzifə və funksiyaları, eləcə də respublikanın digər tipdən və növdən olan kitabxanaları sistemindəki yeri və rolu hüquqi cəhətdən öz geniş əksini tapır. Burada deyilir: "Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar elm sahəsinə görə ixtisaslaşdırılan, milli və xarici ədəbiyyat fondlarına malik olan baş kitabxana-biblioqrafiya və informasiya müəssisələridir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar müvafiq sahədə fəaliyyət göstərən digər kitabxanalar üçün informasiya, kitabxanalararası abonement və metodik mərkəz funksiyasını həyata keçirir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların fəaliyyəti bu qanunla və digər müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının və onun filiallarının, Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının işçilərinin əmək haqqlarına müvafiq əlavələr müəyyən edilir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların statusu müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir". (1)

Göründüyü kimi, haqqında bəhs edilən kitabxana tipinin kompleks elementlərinin hüquqi əksi Qanunda təsbit edilmiş və ölkədə fəaliyyət göstərən bütün kitabxana tiplərinin, o cümlədən də elmi-sahəvi kitabxanaların cəmiyyətdə normal fəaliyyətini təmin edəcək möhkəm hüquqi baza formalaşdırılmışdır.

Azərbaycanda elmi-sahəvi kitabxanaların yaradılması və onların sənəd-informasiya fondlarının formalaşdırılması prosesi XX əsrin 20-ci illərindən etibarən həyata keçirilməyə başlamışdır. Bu istiqamətdə ilk addım Respublika Elmi-Kənd Təsərrüfatı Kitabxanasının yaradılması olmuşdur. Bu Kitabxanadan sonra 1930-cu ildə Respublika Elmi-Texniki, 1940-cı ildə Respublika Elmi-Tibb və 1983-cü ildə Respublika Elmi-Pedaqoji Kitabxanaları təşkil edilmişdir. (2, s.200)

Qeyd etdiyimiz kimi, ölkəmizdə yaradılan ilk elmi-sahəvi kitabxana Respublika Elmi-Kənd Təsərrüfatı Kitabxanası (REKTK) olmuşdur. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası fəaliyyətə başladığı ilk dövrlərdən cəmiyyətdə iqtisadiyyatın infrastrukturu kimi öz fəaliyyəti ilə iqtisadi proseslərin informasiya təminatları ilə məşğul olmaqla onun inkişafında özünəməxsus rol oynamağa başlamışdır.

Kitabxana 1921-ci ildə Azərbaycan SSR Xalq Torpaq Komissarlığı (XTK) tərəfindən yaradılmış və 1923-cü il aprel ayının 12-də XTK-nın 47/213 saylı əmri ilə Mərkəzi Kənd Təsərrüfatı Kitabxanası kimi fəaliyyətə başlamışdır. (7, s.46)



1967-ci ildə Kitabxana Azərbaycan SSR Nazirlər Sovetinin Respublika Kənd Təsərrüfatı Nazirliyi nəzdində Respublika Elmi-Kənd Təsərrüfatı Kitabxanası kimi öz fəaliyyətini davam etdirmiş və ölkəmiz öz dövlət müstəqilliyini qazandıqdan sonra da Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin nəzdində fəaliyyət göstərməyə başlamışdır. 1982-ci ildən Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası respublikada kənd təsərrüfatı ədəbiyyatı üzrə depozitar mühafizə mərkəzidir. Hazırda Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası əsasnaməyə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını təbliğ edən, respublikanın nazirlik, şirkət, idarə və müəssisələri, elmi-tədqiqat və layihə institutlarının, eləcə də elm və texnika, kənd təsərrüfatı sahəsində tədqiqat aparan ayrı-ayrı mütəxəssislərə, tələbələrə, aspirantlara, magistrlərə məlumat-biblioqrafiya və kitabxana xidməti göstərən respublika miqyaslı elmi təyinata malik kitabxanadır. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının ümumi fondunun həcmi 1003362 nüsxə, kitab və digər informasiya daşıyıcılarının verilişi 658258 nüsxə, oxucuların sayı 48623 nəfərdir. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasında nadir nüsxələr və xarici ədəbiyyat fondları mövcuddur. Nadir nüsxələr fondunda 3000 nüsxəyə yaxın ədəbiyyat toplanıb. (8, 188)

REKTK Azərbaycan Respublikası ərazisində yerləşən 51 şəbəkə və 39 filial kitabxanalarına mərkəzləşdirilmiş formada metodiki köməklik göstərir. Respublika Elmi-Kənd Təsərrüfatı Kitabxanası kitabxanalararası mübadilə yolu ilə MDB-nin 47 kənd təsərrüfatı kitabxanaları ilə kitab mübadiləsi aparır, eləcə də Polşa, Koreya, Fransa, Almaniya, Türkiyə və b. ölkələrin kitabxanaları ilə sıx əlaqə yaradır. Hal-hazırda Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasında 5 şöbə, 3 bölmə fəaliyyət göstərir. Hazırda kitabxanada 34 işçi fəaliyyət göstərir.

Ölkəmizdə fəaliyyət göstərən çoxillik zəngin təcrübəyə malik Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar içərisində Respublika Elmi-Texniki Kitabxanası (RETK) mühüm yer tutur.

1930-cu ildə "Neftçi" klubu kitabxanasının bazası əsasında ölkənin ilk elmi-texniki kitabxanası–Azneftin Mərkəzi Texniki kitabxanası yaradılmışdır. (4, s.400) 1957-ci ildə bu kitabxana Azərbaycan SSR Nazirlər Sovetinin göstərişi ilə Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Elm və Texnika Komitəsi nəzdində Respublika Elmi-Texniki Kitabxanasına çevrilmişdir. 2002-ci ildə Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsi ləğv edildikdən sonra Kitabxana Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tabeçiliyinə keçirildi.

Respublika Elmi-Texniki Kitabxanası fəaliyyət göstərdiyi müvafiq sahə üzrə nazirlik, şirkət, idarə və müəssisələrə, elmi-tədqiqat və layihə institutlarına, eləcə də elm və texnika sahəsində tədqiqat aparan ayrı-ayrı şəxslərə, ali məktəb tələbələrinə məlumat-biblioqrafiya və kitabxana xidməti göstərən baş mərkəz hesab edilir. (3, s.9)

Kitabxananın ümumi fondu–14732194 çap nüsxəsi ədəbiyyat təşkil edir. Kitabxananın nəzdində Respublika Patent Fondu və Respublika Normativ Texniki Sənədlər Fondu da fəaliyyət göstərir. Respublika Patent Fondu 1967-ci ildə yaradılmışdır. Fond dünyanın 35 ölkəsinin 27 dilində Beynəlxalq və Avropa patent idarələrinin sənədləri, həmçinin müəllif şəhadətnamələrilə komplektləşdirilmişdir. Respublika Standart və Normativ-Texniki Sənədlər Fondu 1969-cu ildən fəaliyyət göstərir. Fond yerli və xarici ölkə normativ-texniki sənədlər və standartlardan komplektləşdirilmişdir.

Respublika Elmi-Texniki Kitabxanasının oxucularının sayı 6486 nəfər təşkil edir. Həmin oxuculara il ərzində cəmi 114582



nüsxə ədəbiyyat təqdim edilmişdir. Bundan başqa, kitabxananın Gəncə şəhərində də filialı fəaliyyət göstərir. (6, s.38)

RETK respublikanın ən böyük elmi-sahəvi kitabxanalarından biri olmaqla yanaşı, ənənəvi kitab təbliği və kitabxana-biblioqrafiya xidmətindən əlavə müəllif şəhadətnamələri və patent ədəbiyyatı, normativ-texniki sənədlər, xarici ölkələrin jurnalları və digər ədəbiyyatı özündə əks etdirən elmi-tədqiqat işi və metodik fəaliyyətlə məşğul olan böyük müəssisədir. RETK-nın fondlarında ictimai-siyasi ədəbiyyat, elmi-texniki, sorğu ədəbiyyatı, informasiya xarakterli ədəbiyyat, dərslik və metodik materiallar, dövri və ardı davam edən nəşrlər, təcrübə-konstruktor işləri, tərcümələr, sənaye kataloqları, normativ texniki sənədlər, ixtiralar, ixtiraçılıq-patent hüquqları haqqında ədəbiyyat, patentlər, mətbuatda dərc olunmayan ədəbiyyat qorunub saxlanılır. Hər il kitabxananın fondlarına yüzlərlə ədəbiyyat daxil olur. Yeni kitablardan əlavə oxucular da hədiyyə olaraq kitabxanaya ədəbiyyat təqdim edirlər. Kitabxananın fondlarından alimlər və mütəxəssislər geniş istifadə edirlər. Respublikanın müxtəlif bölgələrindən elmi işçilər, alim və mütəxəssislər kitabxanaya müraciət edirlər.

Respublikamızın elmin, təhsilin, mədəniyyətin inkişafına təsir göstərən qabaqcıl, iri elmi-sahəvi kitabxanalarından biri də Azərbaycan Dövlət Respublika Elmi-Tibb Kitabxanasıdır (AzDRETK). Kitabxana 1940-cı ildə yaradılmışdır. Hazırda Kitabxana Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərir. Kitabxana fondu ilkin olaraq ölkəmizin görkəmli həkim və alimlərinin hədiyyə verdikləri nəşrlər əsasında formalaşdırılmışdır. O zamandan indiyə qədər kitabxananın fondu, ərazisi, işçi ştatı çox artmışdır. Kitabxananın 2007-ci ildə hesabatında olan məlumata əsasən kitabxana fondu 472494 nüsxə fonddan ibarətdir. 2007-ci ildə 3541 oxucu gəlişi və 21405 kitab verilişi qeydə alınmışdır. (11, s.399)

Kitabxanada ənənəvi kitabxana-informasiya xidmətinin inkişafı üçün yeni müasir meyillərin tətbiqi istiqamətində bir sıra tədbirlər görülür. Bununla yanaşı, bir sıra kütləvi tədbirlər, müxtəlif əlamətdar günlərə həsr olunmuş nəşr sərgiləri keçirilir. Məsələn, 2006-cı ildə vərəmə aid təşkil olunmuş mütəxəssis günü çox maraqlı olmuşdur, 2009-cu ildə endokrinoloqlar günü, 2010-cu ildə ekologiya günü, 2011-ci ildə sağlamlıq günü və s. (4, s.449)

Həmçinin, kitabxanada tez-tez oxucuların kitabxana-informasiya resurslarından istifadəsi ilə əlaqədar maarifləndirici tədbirlər keçirilir. Bu tədbirlərdə oxucularla soraq-informasiya aparatlarından istifadə etmək (kataloq, kartoteka sistemi), axtarışı düzgün təşkil etmək barədə söhbətlər aparılır, tibbə dair müxtəlif mövzular üzrə nəşrlər, eləcə də dövrü nəşrlər haqqında məlumat verilir. Bu tədbirlərdə çox zaman əməkdaşlar tərəfindən müxtəlif mövzular üzrə seçilmiş nəşrlərlə bağlı şifahi icmallar da aparılır. Onu da qeyd etmək lazımdır ki, bu tədbirlərdə çox zaman Respublika Elmi-Tibb Kitabxanasının elmi-metodiki köməklik göstərdiyi tibb kitabxanaları şəbəkəsinin əməkdaşları da iştirak edirlər.

Kitabxana oxucuları arasında müxtəlif istiqamətlərdə hazırlanmış sərgilər də böyük maraq doğurur. Sərgilər yeni daxil olan ədəbiyyat, elmi-praktiki fəaliyyətdə olan ayrı-ayrı görkəmli həkimlərə dair nəşrlərdən və müxtəlif əlamətdar hadisələr, aktual məsələlərə həsr edilmiş tematik nəşrlərdən ibarət olur. Kitabxanada təşkil olunan belə sərgilər içərisində «Siqaret əleyhinə beynəlxalq mübarizə günü», «Tibb işçiləri günü», «M. Cavadzadə-80», «A. Namazova», «AİDS ilə mübarizə günü» və s. göstərmək olar. (2, s.299) Sərgilərin daha geniş yayılmış formalarından biri hərəkətli sərgilərdir. Hərəkətli sərgilərin mahiyyəti müxtəlif orqanlarda məqsədəuyğun mövzulara həsr olunmuş nəşrlərin təqdimatından ibarətdir. Bu növ sərgilər əlavə vəsait tələb etdiyi üçün



onları tez-tez təşkil etmək mümkün olmur. Lakin buna baxmayaraq, kitabxananın əməkdaşları tərəfindən Ağ ciyər xəstəlikləri ETİ, M.Topçubaşov adına Milli Cərrahiyyə Mərkəzi, Mərkəzi Hərbi Klinik Hospitalda belə sərgilər uğurla təşkil olunmuş və oxucu kontingentinin genişlənməsinə, həkimlərin kitabxanaya marağının artmasına səbəb olmuşdur.

Kitabxana-informasiya xidmətinin daha da təkmilləşdirilməsi üçün 2006-cı ildən tibbə dair müxtəlif mövzulu CD-lərdən ibarət fondun da təşkilinə başlanmışdır. Hazırda bu fondda 54 disk vardır. Gələcəkdə bu fondun genişləndirilməsi və zənginləşdirilməsi nəzərdə tutulur. Oxuculara daha dolğun informasiya xidmətinin həyata keçirilməsi üçün internet xidmətlərindən istifadə olunur. Peşəkar əməkdaşlar oxuculara elmi-tibbi saytlardan istifadə edilməsi, müxtəlif mövzular üzrə sorğuların formalaşdırılması və bu sorğu üzrə axtarışın aparılması istiqamətində metodiki köməklik göstərirlər.

Daha bir xidmət forması kitabxanalararası abonementdir (KAA). Bu xidmət vasitəsilə ölkəmizin digər iri kitabxanaları ilə əlaqələr yaradılır və oxucuların sorğularının daha dolğun ödənilməsi üçün həmin kitabxanaların fondlarından istifadə edilir. Həmin kitabxanalarla koordinasiyanın həyata keçirilməsi işində KAA şöbəsi ilə yanaşı elmi-metodiki, xidmət, biblioqrafiya, xarici ədəbiyyat şöbələri də məşğul olurlar. Elmi-metodiki şöbənin fəaliyyəti, əsasən ölkəmizdə tibb kitabxanaları şəbəkəsinə metodik köməklik göstərməkdən ibarətdir. (2, s.98) Lakin buna baxmayaraq, bu şöbə də kitabxana-informasiya işinin təşkilində bilavasitə iştirak edir. Belə ki, həmin şöbə respublikamızda, əsasən də regionlarda tibb kitabxanalarının fəaliyyətinə yardımçı olur, onların fondlarını mübadilə fondu hesabına genişləndirməyə səy göstərir.

Ölkəmizdə fəaliyyət göstərən respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalardan biri də Respublika Elmi-Pedaqoji Kitabxanasıdır (REPK). Kitabxana öz funksiya və vəzifələrinə, eləcə də, fondunun zənginliyinə görə Respublikanın ən qabaqcıl informasiya müəssisələrindən biridir.

Respublika Elmi Pedaqoji Kitabxanası 1982-ci ildən fəaliyyət göstərir. REPK fəaliyyət göstərdiyi vaxtdan Azərbaycan Respublikası Təhsil Nazirliyinin ümumtəhsil peşə məktəbləri, orta ixtisas təhsil müəssisələri kitabxanaları üçün metodiki mərkəz funksiyasını yerinə yetirir. (4, s.89) Elmi-texniki, bədii, ictimai-siyasi, iqtisadi, sosial-mənəvi ədəbiyyat xəzinəsi oxucuların istifadəsinə verilmiş, kitabxana fondlarının formalaşmasında tarixi-milli qaynaqlıq, yüksək ideallıq, bəşərilik və humanistlik və s.prinsiplər ön plana çəkilmişdir.

REPK-da elmi-sahəvi kitabxana kimi Respublika təhsil işçilərinə, təhsil sistemində fəaliyyət göstərən müəssisələrə, nazirliyin kitabxana şəbəkəsinə məlumat-biblioqrafiya xidmətini həyata keçirən elmi metodik və əlaqələndirmə mərkəzi, respublikada elmi pedaqoji ədəbiyyatın əsas kitabsaxlayıcısıdır. Kitabxanada kataloq, kartoteka, biblioqrafik vəsaitlər, elektron informasiya ehtiyatları yaradılaraq oxucuların istifadəsinə verilir və öz profilinə uyğun olaraq fondun yeni ədəbiyyatla tam komplektləşdirilməsi üçün məqsədyönlü iş aparılır. (9,s.120)

Komplektləşdirmə şöbəsi çap nəşrlərinin ümumi və fərdi uçotunu təmin edir, ədəbiyyatı elmi və texniki cəhətdən işləyir, kitab fondunun təkmilləşdirilməsi üzrə iş aparır, baş kataloqu yaradır.

Dünya kitabxanalarının sənəd-informasiya resurslarına əlçatarlığı təmin etmək, informasiya mübadiləsini təşkil etmək və s. məqsədilə elektron kataloqlarının yaradılmasının vacibliyini nəzərə alan Kitabxanada fond dünya kitabxanalarında tətbiq edilən



Universal Onluq Təsnifatı (UOT) əsasında yenidən təsnifləşdirilmişdir. Oxucu qrupunun maraq və sorğularının müxtəlif formada öyrənilməsində və ödənilməsində kitabxana işi üçün yararlı olan biblioqrafik nəşrlər də böyük əhəmiyyət kəsb edir.

REPK Təhsil Nazirliyi aparatının əməkdaşlarına, təhsil işçilərinə, tələbə və şagirdlərə, kitabxananın digər oxucularına informasiya-biblioqrafiya xidmətini təşkil edir, məlumatın çatdırılmasında müxtəlif formalardan istifadə edir. Belə ki, mütəxəssislərin sorğularını operativ ödəyir, məlumat günləri, mütəxəssis günləri, biblioqrafik icmal, tematik sərgilər keçirir, cari və retrospektiv ədəbiyyatın göstəricilərini tərtib edir, dövrü nəşrlərin kartotekasını yaradır, təhsil, pedaqogika, pedaqoji elmlərə dair göstəricilər, görkəmli pedaqoqların şəxsi göstəricilərini tərtib edir. (10, s.93)

REPK fəaliyyətinin 25 illiyi münasibətilə 595 sözdən ibarət 3 dildə (Azərbaycan-rus-ingilis) «Kitabxana-biblioqrafiya terminləri lüğəti» nəşr etdirmişdir. Fondda Azərbaycanda xalq təhsili, pedaqogika, psixologiya və müxtəlif elm sahələrini əhatə edən ədəbiyyat, avtoreferatlar, qəzet, jurnal və digər çap məhsulları və həmçinin xarici ölkələrdə nəşr edilən kitablar qorunub saxlanılır.

Kitabxanada 30 oxucu yeri olan oxu zalı xidmət göstərir. Zalda mikrodaşıyıcılarda olan materiallardan istifadə etmək üçün xüsusi aparatlar oxucuların istifadəsinə verilmişdir. Oxu zalında daimi və dəyişən sərgilər təşkil edilir və mütəmadi olaraq təkmilləşdirilir.

REPK-da əsas kitabxana proseslərinin kompüterləşdirilməsini həyata keçirmək məqsədilə «Yeni informasiya texnologiyaları şöbəsi» yaradılmışdır. Şöbənin bu istiqamətdəki fəaliyyəti uğurlu olmuş, Kitabxana İnternet şəbəkəsinə qoşulmuş və özünün WEB səhifəsini açmışdır. Həmçinin, Kitabxanada lokal kompüter şəbəkəsi yaradılmış, "İRBİS 64" Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sisteminin nümayiş versiyası əsasında elektron kataloqu

əsası qoyulmuşdur. Şöbədə elektron informasiya daşıyıcıları (CD, DVD) toplanmışdır ki, bu da Kitabxananın öz fondunu müasir informasiya cəmiyyətinin tələblərinə uyğun komplektləşdirməsi və oxuculara kitabxana-informasiya xidmətinin yeni mütərəqqi üsulları əsasında xidmət işinin təşkili sahəsində attdığı uğurlu addımların mühüm göstəricisi kimi qiymətləndirilə bilər.

REPK-da təhsilin, təlim-tərbiyə işinin inkişaf etdirilməsinə yaxından köməklik göstərilməsi üçün ümumtəhsil, peşə məktəbləri və orta ixtisas müəssisələri kitabxanalarının fəaliyyəti haqqında 2002-ci ildən Məlumat (Verilənlər) Bazası yaradılmasına başlamışdır. Bu baza müntəzəm olaraq təkmilləşdirilir və əsasən məktəb kitabxanalarının dinamikası diqqət mərkəzində olur. Kitabxnada yaradılmış həmin Məlumat (Verilənlər) Bazası əsasında "Təhsil Nazirliyi sistemindəki ümumtəhsil məktəb kitabxanalarının fəaliyyəti (2003)" adlı məlumat kitabı da tərtib edilmişdir.

Beləliklə, respublika əhəmiyyətli dövlət elmi-sahəvi kitabxana fondlarının formalaşması və inkişafı olduqca əhəmiyyətli zaman kəsiyində baş vermiş və bu mühüm proses ölkədə xalq təsərrüfatının, elmin, mədəniyyətin, iqtisadi infrastrukturun inkişafında özünəməxsus rol oynamışdır. İstər sovetlər birliyi dövründə, istərsə də dövlət müstəqilliyinin əldə edilməsindən sonrakı dövrdə respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar xidmət etdikləri müvafiq xalq təsərrüfatı sahələrinin elmi-informasiya təminatında, mütəxəssislərin ən yeni, qabaqcıl təcrübə metod və vasitələrini və onların nəticələrini əks etdriən sənədlərlə təmin olunmasında və dünya elminin ən son nailiyyətlərindən bəhrələnmək prosesində müstəsna əhəmiyyət kəsb etmişlər. Beləliklə də onlar əsas etibarilə, xidmət etdikləri müvafiq xalq təsərrüfatı sahəsinin ümumi infrastrukrurunda elmi-praktik və nəzəri-metodiki mahiyyət ehtiva edən ciddi struktur elementi kimi çıxış edərək cəmiyyətin və iqtisadiyyatın ümumi inkişafına bilavasitə xidmət göstərmişlər.



Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların yuxarıda qeyd etdiyimiz belə mütərəqqi fəaliyyəti hər zaman mütəxəssislərin, ziyalıların, müvafiq struktur rəhbərliklərinin, xüsusilə, ölkə rəhbərliyinin daimi diqqət mərkəzində olmuş və bu fəaliyyətin daha ciddi uğurla, məqsədyönlü və səmərəli inkişafını təmin etmək üçün əhəmiyyətli addımlar atılmışdır. Belə ki, Azərbaycan dövlətinin kitabxana-informasiya siyasətində, ölkədə kitabxana-informasiya sahəsi ilə bağlı qəbul edilmiş bütün dövlət sənədlərində: respublika prezidentinin fərman və sərəncamlarında, dövlət proqramlarında,Milli Məclisin qəbul etdiyi qanun və qərarlarda, Nazirlər Kabinetinin, əlaqədar nazirliklərin, digər müvafiq strukturların əmr, sərəncam və təlimatlarında respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalarla əlaqədar böyük əhəmiyyət kəsb edən müddəalar təsbit edilmişdir ki, bütün bunlar da həmin kitabxanaların müasir informasiya cəmiyyətinin tələblərinə müvafiq olaraq normal, tam hüquqi əsaslı və demokratik prinsiplər üzərində fəaliyyətinə və inkişafına olduqca böyük təkan verməkdədir.

## *ƏDƏBİYYAT SİYAHISI:*


1. "Kitabxana işi haqqında" Azərbaycan Respublkasının Qanunu// Azərbaycan.-1999.-14 mart.
2. İsmayılov X.İ. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi(1918-2000-ci illər): Monoqrafiya, BUN, 2000.-416s.
3. İsmayılov X.İ. Kitabxanaların idarə edilməsinin müasir problemləri// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2009.-№1,s.6-14
4. Xələfov A.A. Azərbaycanda Kitabxana işinin tarixi: Dərslik: (III hissədə) h.2.- B.: BUN, 2007.-552 s.
5. Xələfov A.A. Azərbaycanda Kitabxana işinin tarixi: Dərslik:(III hissədə) h.3.-B.:2009.-185 s.

6. Xələfov A.A. Respublika Elmi-Texniki Kitabxanası (1930-2000).-B.: BUN,2001.-38 s.
7. Cəfərov A. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının yaranması və inkişafi tarixindən (1928-1945-ci illər) // "Dil və ədəbiyyat".-1997.- s. 44-50
8. Respublika Elmi-Kənd Təsərrüfatı Kitabxanasının biblioqrafik fəaliyyətinin əsas istiqamətləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2008.-№1.-184-188
9. Hacıyeva S. Respublika Elmi-Pedaqoji Kitabxanasının fondunun komplektləşdirilməsinin bəzi xüsusiyyətləri // Dil və ədəbiyyat seriyası.-1997.-s.120-121
10. Hacıyeva S. Respublika Elmi-Pedaqoji Kitabxanası fondunun mövzu-tipoloji tərkibinin formalaşması // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2000.-№2.-s.90-94
11. Məmmədov Ə. Respublika Elmi Tibb Kitabxanasının biblioqrafik resursları və orada təbiət elmlərinə dair mənbələrin əks olunmasının əhəmiyyəti// Azərbaycan tibb elminin və praktik səhiyyənin nailiyyətləri: Elmi əsərlər məcmuəsi: H1.-B.:1999.-s. 396-399

**Д.Г. Магомедли**

## ЭТАПЫ СТАНОВЛЕНИЯ И РАЗВИТИЯ ГОСУДАРСТВЕННОЙ НАУЧНО-ОТРАСЛЕВЫХ ФОНДОВ БИБЛИОТЕК В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

В этой статье рассказывается о серьезной проблеме актуальность для Азербайджана библиотечного которая установила республиканские значительные государственные занимающийся наукой секторами библиотек, а также, его богатые документ-информационные ресурсы, сформированные филиалов и лаконичный исторический анализ основного развития показал и значительные теоретические обобщения отражать



**D.H.Mahammadli**

## STAGES OF FORMATION AND DEVELOPMENT OF THE STATE SCIENTIFIC-SECTORAL LIBRARY FUNDS IN AZERBAIJAN

### SUMMARY

In this article is narrated about a serious actuality problem for Azerbaijan librarianship which established republican significant state scientifical-sectoral libraries, as well as, its rich document-information resources formed branches and laconic historical analysis of main development is showed and significant theoretical generalizations are reflectid